Qədim, doğma Qobustanım

# QOBUSTAN

Qobustan Rayon İcra Hakimiyyətinin orqanı

Qəzet 1992-ci ildən çıxır * İCTİMAİ-SİYASİ QƏZET * №003 (186) aprel 2019-cu il

# "Ölkədə toxumçuluğun mövcud vəziyyəti və 2019-cu ildə qarşıda duran vəzifələr"







***Qobustan rayonunda kənd təsərrüfatı naziri İnam Kərimovun sədrliyi ilə "Ölkədə toxumçuluğun mövcud vəziyyəti və 2019-cu ildə qarşıda duran vəzifələr" mövzusunda respublika müşavirəsi keçirilib.***

Qobustan Gənclər Mərkəzində keçirilən müşavirədə Kənd Təsərrüfatı Nazirliyi Aparatının nümayəndələri, müxtəlif rayonların icra hakimiyyəti strukturlarının məsul şəxsləri, nazirliyin tabeli qurumlarının və Dövlət Aqrar İnkişaf Mərkəzlərinin direktorları, Elmi-Tədqiqat İnstitutlarının nümayəndələri, həmçinin 15 rayondan toxumçuluqla məşğul olan 177 fermer, toxum emalı və satışı ilə məşğul olan sahibkarlar iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Qobustan rayon İcra Hakimiyyətinin başçısı Adil Məmmədov bildirib ki, ölkədə kənd təsərrüfatının inkişafına geniş dövlət dəstəyi mövcuddur. Aqrar sahənin inkişafında toxumçuluq və tingçiliyin mühüm rol oynadığını xatırladan Adil Məmmədov rayonda toxumçuluq üzrə ixtisaslaşmış təsərrüfatların çoxluq təşkil etdiyini deyib. Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"ndə ölkənin ərzaq təhlükəsizliyinin gücləndirilməsi ilə bağlı konkret hədəflər qoyulduğunu deyən Adil Məmmədov bildirib ki, bu hədəflərə çatmaq üçün rəqabət qabiliyyətli kənd təsərrüfatı məhsullarının istehsalı və emalının genişləndirilməlidir. O vurğulayıb ki, bu məqsədlə Kənd Təsərrüfatı Nazirliyi tərəfindən regionlarda mütəmadi müşavirələr keçirilir.

Kənd təsərrüfatı naziri İnam Kərimov müşavirədə çıxış edərək qeyd edib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin yürütdüyü siyasət nəticəsində iqtisadiyyatın digər sahələrində olduğu kimi aqrar sahə də keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoyub. Nazir bildirib ki, dövlət başçısının qəbul etdiyi qərarlar sayəsində aqrar sahənin inkişafı ilə bağlı qabaqcıl tənzimləmə və dəstək mexanizmlərinin ölkəmizdə geniş tətbiqinə real zəmin yaranıb: "Bildiyiniz kimi, Cənab Prezident ölkədə aqrar sektoru iqtisadiyyatın prioritet sahəsi müəyyən edib. Ölkənin ərzaq təhlükəsizliyini təmin etmək üçün fəaliyyətimizdə düzgün və səmərəli idarəçilik, kəndli və fermerlərə yaxınlıq, innovasiyaların tətbiqi prinsiplərini əsas götürürük. Toxumçuluq sahəsi ərzaq təhlükəsizliyinin təmin olunmasının əsas prioritet istiqamətlərindəndir. Bu sahədə fəaliyyətin səmərəli təşkili kənd təsərrüfatı bitkilərinin məhsuldarlığının və keyfiyyətinin yüksəldilməsinə əhəmiyyətli dərəcədə müsbət təsir göstərir. Kənd təsərrüfatı bitkilərinin yeni sortlardan və sertifikatlı toxumlardan istifadə məhsuldarlığı 20-30 faiz artırır".

İnam Kərimov qeyd edib ki, ölkədə toxumçuluq sektoru müasir tələblərə cavab verən yeni texnologiyaların tətbiqi əsasında inkişaf etdirilməlidir. Nazir keyfiyyətli toxumlara olan tələbatın əsasən yerli istehsal hesabına ödənilməsi üçün müvafiq tədbirlərin görüldüyünü müşavirə iştirakçılarının diqqətinə çatdırıb.

Daha sonra Kənd Təsərrüfatı Nazirliyinin Bitki sortlarının qeydiyyatı və toxum nəzarəti üzrə Dövlət Xidmətinin rəis müavini Möhtəsim Əhmədov "Toxumçuluğun mövcud vəziyyəti və qarşıda duran vəzifələr" mövzusunda məruzə ilə çıxış edib. Azərbaycan Toxumçular Assosiasiyasının sədri Afər Hacıyev, "Agro Dairy"MMC-nin nümayəndəsi Fuad Kərimov, Balakən rayonunda meyvə ting istehsalı ilə məşğul olan Nəsrulla Orucov fəaliyyət göstərdikləri sahə ilə bağlı fikirlərini bölüşüblər.

Müşavirədə toxum ilə təminat, toxumçuluğun inkişaf istiqamətləri, subsidiyaların verilməsi istiqamətində fikir mübadiləsi aparılıb, fermerlərin təklifləri qeydiyyata alınıb. Tədbirdə ölkədə toxumçuluğun inkişafı məqsədilə qarşıya qoyulan vəzifələrə toxunulub, bu cür müzakirələrin mütəmadi keçirilməsi qərara alınıb.

# Ekologiya və Təbii Sərvətlər Nazirliyinin və Qobustan Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə ağacəkmə aksiyası keçirilib

***Ekologiya və Təbii Sərvətlər Nazirliyinin və Qobustan Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə ağacəkmə aksiyası keçirilib.***

Aksiya Bakı-Qobustan-Şamaxı magistral yolunun 94-95 km-də, Qobustanın rayonu ərazisində baş tutub.

Ağacəkmə aksiyasında Ekologiya və Təbii Sərvətlər naziri Muxtar Babayev, Qobustan Rayon İcra Hakimiyyətinin başçısı Adil Məmmədov, könüllülər, idarə, müəssisə və təşkilatların nümayəndələri iştirak edib.

Ümumilikdə 3500-dən çox eldar şamı, həmişə yaşıl ağaclar və gül kolları əkilib. Ağaclara aqrotexniki qulluq göstərilib və suvarılıb. Bu cür aksiyaları keçirməkdə məqsəd rayon ərazisində yeni meşə zolaqlarının salınması və ekoloji tarazlığın qorunmasıdır.





# Şanlı aprel döyüşlərində Qobustan rayon Poladlı kənd sakini mayor Bağıyev Mirdaməd Səristan oğlu da iştirak etmişdir



***2016-cı il aprelin 1-dən 2-nə keçən gecədən başlayaraq Azərbaycan və Ermənistan silahlı qüvvələri arasında baş vermiş hərbi münaqişə.***

Dördgünlük müharibə zamanı, Azərbaycan Silahlı Qüvvələrinin birləşmələri Goranboy rayonuna və Naftalan şəhərinə təhlükə yarada biləcək Talış kəndi ətrafındakı yüksəklikləri, eləcə də Seysulan məntəqəsini azad edib, Füzuli rayonu istiqamətində yerləşən ”Lələ təpə” adlandırılan yüksəkliyə nəzarəti ələ keçiriblər. Döyüşlər nəticəsində, Azərbaycan Silahlı Qüvvələri Ağdərə-Madagiz istiqamətində yolların nəzarətdə saxlanılmasını təmin etdi.

Hərbi əməliyyatlar zamanı Azərbaycan Silahlı Qüvvələrinin 88 hərbi qulluqçusu həlak olub, 1 Mi-24 helikopteri vurulub və 1 tank mina partlayışı zamanı sıradan çıxıb. Döyüşlərdə ermənilərə məxsus 30 tank, 15-dək artilleriya qurğusu və möhkəmləndirilmiş mühəndis qurğuları məhv edilib, 320 döyüşçüsü öldürülüb və 500-dən artıq döyüşçüsü yaralanıb.

Şanlı aprel döyüşlərində Qobustan rayon Poladlı kənd sakini mayor Bağıyev Mirdaməd Səristan oğlu da iştirak etmişdir. O, döyüşdə yaralanmasına baxmayaraq düşmənin 7 tank, 5 hərbi texnikasını məhv etmişdir. Döyüşdə göstərdiyi şücaətə görə Ali Baş komandan İlham Əliyev tərəfindən Vətənə xidmətlərə görə 3- cü dərəcəli medalı ilə təltif olunmuşdur.

03.04.2019 -cu il tarixində Qobustan rayon İcra hakimiyyətinin qonağı olub. Rayon İcra hakimiyyəti başçısı tərəfindən fəxri fərmanla təltif edilmişdir.







# Qobustan rayon Ərəbqədim kənd tam orta məktəbində Qobustan Rayon İcra Hakimiyyətinin başçısı Adil Məmmədov Ərəbqədim kənd sakinləri ilə səyyar görüş keçirdi

***Qobustan rayon Ərəbqədim kənd tam orta məktəbində Qobustan Rayon İcra Hakimiyyətinin başçısı Adil Məmmədov Ərəbqədim kənd sakinləri ilə səyyar görüş keçirdi.***

Görüşdə Rayon İcra Hakimiyyəti başçısının müavinləri, aparatın şöbə müdirləri, xidmət sahələrinin rəhbərləri iştirak edirdi. Sakinlər çıxış edərək rayonumuzda gedən abadlıq və quruculuq işlərinə görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirdilər və onları narahat edən bəzi nöqsan və çatışmazlıqların aradan qaldırılmasını xahiş etdilər. Rayon İcra Hakimiyyətinin başçısı Adil Məmmədov sakinlər tərəfindən qaldırılan məsələlərin həlli ilə əlaqədar aidiyyəti qurum rəhbərlərinə konkret tapşırıqlar verdi.



# Qobustan rayon Göydərə kənd ümumi orta məktəbində Qobustan Rayon İcra Hakimiyyətinin başçısı Adil Məmmədov Göydərə kənd sakinləri ilə səyyar görüş keçirdi









***Qobustan rayon Göydərə kənd ümumi orta məktəbində Qobustan Rayon İcra Hakimiyyətinin başçısı Adil Məmmədov Göydərə kənd sakinləri ilə səyyar görüş keçirdi.***

Görüşdə Rayon İcra Hakimiyyəti başçısının müavinləri, aparatın şöbə müdirləri, xidmət sahələrinin rəhbərləri iştirak edirdi. Sakinlər çıxış edərək rayonumuzda gedən abadlıq və quruculuq işlərinə görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirdilər və onları narahat edən bəzi nöqsan və çatışmazlıqların aradan qaldırılmasını xahiş etdilər. Rayon İcra Hakimiyyətinin başçısı Adil Məmmədov sakinlər tərəfindən qaldırılan məsələlərin həlli ilə əlaqədar aidiyyəti qurum rəhbərlərinə konkret tapşırıqlar verdi.

# Hərb tariximizin yeni qəhrəmanları

***Aprel döyüşlərində Azərbaycanın igid oğulları əks həmlə ilə 3günə düşmənin "Ohanyan səddini" darmadağın etdi. Bu təkcə Azərbaycan Ordusunun qüdrətini yox, həm də yeni qəhrəmanlarımızı, mərd oğullarımızı bizə tanıtdırdı.***

Bir daha məlum oldu ki, Azərbaycan əsgəri bir qarış torpağına görə canından keçməyə hazırdır. Dörd günlük müharibə göstərdi ki, özünün işğalçı Ermənistan ordusunun uydurduğu "keçilməz səddi" yüzdə biri qədərində deyilmiş. Dörd günlük müharibə misilsiz şücaət göstərmiş, həmyerlimiz mayor Mirdamət Bağıyev düşmənin 7 tankını, 1 PDM-ni, şəxsi heyyətlə dolu 3 hərbi maşınını məhv etmişdir. Erməni əsgər və zabtləri silah-sursatlarını atıb qaçmışlar. Bu döyüşdə Mirdamət Bağıyev çiynindən güllə yarası alsa da, tabeliyində olan əsgərlərə bildirməmiş və yaralı halda 2 kilometr yol gedərək döyüşü axıra qədər davam etdirmişdi. Mirdamət Bağıyev tabeliyində olan heyyətlə onlara tapşırılan düşmən mövqeyini ələ keçirmişlər.

Bir qədər vaxt keçəndən sonra ermənilər ehtiyyat qüvvələr ilə əks hücuma keçirlər. Lakin onlara irəli gəlməyə aman verməyən ordumuzun qəhrəman əsgərləri düşmənin hücumunu dəf edərək, çoxlu sayda itgi verərək geri çəkilməyə məcbur etmişlər.

Aprel döyüşlərində torpaqlarımızın işğaldan azad edilməsi uğrunda canından keçməyə hazır olan igid oğullarımız çoxdur. Onlardan bir neçəsinin adlarını qeyd etmək olar, tank bölməsinin komandiri zabit Elmin Həsənov, tank bölməsinin komandiri Səxavət Baxışov, düşmənə tərəf ildırım kimi şığıyan "N" saylı hərbi hissənin giziri Əli Eynullayev və sairlər. Bunlar torpaqlarımızın işğaldan qələbə ilə azad edilməsinin ilk müjdəçiləri olmaqla Azərbaycan Respublikasının Prezidenti tərəfindən layiqincə qiymətləndirilmişlər. Azərbaycan hərb tarixində xüsusi yer tutan belə qəhrəman oğullar minlərlədir. Onlar torpaqlarımızın erməni işğalcılarından azad edilməsi üçün Ali Baş komandanın əmrini gözləyirlər.

***Poladlı kənd sakini Teymur Ağayev***

# Qobustan Rayon İcra Hakimiyyətinin başçısı Adil Məmmədov İlanlı kənd sakinləri ilə səyyar görüş keçirdi



***Kənd əhalisi əsasən heyvandarlıq və əkinçiliklə məşğuldur. Rayon İcra Hakimiyyətinin başçısı cənab Adil Məmmədov kənd sakinlərinin problemlərini, təklif və istəklərini dinləmək üçün 26 aprel 2019-ci il tarixdə İlanlı kəndində səyyar görüş-qəbul keçirmişdir.***

Görüşdə Azərbaycan Respublikasının Prezidenti Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin işçisi Qalib Əsgərov da iştirak etmişdir. Tədbiri giriş nitqi ilə açan İƏD üzrə nümayəndə Qalib Xəlilov gələn qonaqları salamlayaraq rayonumuzda aparılan abadlıq-quruculuq işlərinə görə ölkə prezidenti cənab İlham Əliyevə kənd sakinləri adından təşəkkür etdi. Sonra RİH-nin başçısı Adil Məmmədov çıxış edərək Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Qobustan rayonuna səfərləri, dövlətimizin, və dövlət rəhbərinin rayonumuza diqqəti və qayğısı barədə sakinlərə məlumat verib. RİH başçısı bildirib ki, çoxsaylı sosial, istehsal, emal, infrastruktur obyektlərinin, yeni yolların açılışı, səfərdən sonra cənab Prezidentin qəbul etdiyi sərəncamlar Qobustan rayonunun geniş miqyasda, çoxistiqamətli inkişafı üçün möhkəm əsas yaradır. Hər bir inzibati ərazi dairəsi, hər bir kənd, hər bir rayon sakini qarşıya qoyulmuş vəzifələrin, yeni layihələrin həyata keçirilməsi üçün fədakarlıqla çalışmalıdır.





İcra hakimiyyətinin başçısı daha sonra kəndin həlli vacib problemlərindən və onların həlli yollarından danışıb. Qeyd edib ki, Vətəndaşlar hər bir addımda, hər bir fəaliyyət istiqamətində qanunçuluğa riayət etməli, xüsusilə də torpaqlardan istifadə, tikinti məsələlərində, enerji resurslarından istifadədə diqqətli olmalıdırlar. Görüş zamanı vətəndaşlar kəndə gələn 3 km-lik yolun asfaltlanması, kənd daxili elektrik dirəklərinin təmir olunması və kənd daxili 0.5 km-lik yolun çınqıl olunması ilə bağlı müraciət etmişlər. RİH başçısı qaldırılan məsələnin həlli ilə bağlı aidiyyatı üzrə idarə-müəssisə rəhbərlərinə tapşırıqlarını verib.

# Qobustan rayon Ərəbşalbaş kənd ümumi orta məktəbində Qobustan Rayon İcra Hakimiyyətinin başçısı Adil Məmmədov Ərəbşalbaş kənd sakinləri ilə səyyar görüş keçirdi







Qobustan rayon Ərəbşalbaş kənd ümumi orta məktəbində Qobustan Rayon İcra Hakimiyyətinin başçısı Adil Məmmədov Ərəbşalbaş kənd sakinləri ilə səyyar görüş keçirdi. Görüşdə Rayon İcra Hakimiyyəti başçısının müavinləri, aparatın şöbə müdirləri iştirak edirdi. Sakinlər çıxış edərək rayonumuzda gedən abadlıq və quruculuq işlərinə görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirdilər və onları narahat edən bəzi nöqsan və çatışmazlıqların aradan qaldırılmasını xahiş etdilər. Rayon İcra Hakimiyyətinin başçısı Adil Məmmədov sakinlər tərəfindən qaldırılan məsələlərin həlli ilə əlaqədar aidiyyəti qurum rəhbərlərinə konkret tapşırıqlar verdi.

# Şəhidlik- Vətənpərvərliyin ən ali məqamıdır



***2016-cı il aprelin 2-də Ermənistan silahlı qüvvələrinin təxribatlarına cavab olaraq, Azərbaycan Ordusu sürətli əks-hücum əməliyyatı ilə düşməni ağır məğlubiyyətə uğradaraq, Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğal altındakı ərazilərinin 2000 hektardan çox hissəsini azad edib.***



Həmçinin minlərlə hektar ərazi Azərbaycan Ordusunun tam nəzarətinə keçib. Azərbaycan Ordusu dördgünlük Aprel döyüşləri ilə 23 ildən sonra xalqımıza qələbə sevinci yaşadıb.Bu ucalığa yüksələnlərin ömür yolu nə qədər qısa olsa da, şərəfli və örnək sayılır. Azərbaycan torpaqları erməni daşnaklarının təcavüzünə məruz qalandan bu günə kimi xalqımızın vətənpərvər övladları, yaşından asılı olmayaraq, ana Vətənin harayına səs verdi - ölümün gözünə dik baxdılar! Belə şərəfli ömür sahiblərindən biri də həmyerlimiz, Müstəcəbov Orxan Ələsgər oğludur. Orxan rayonun Bədəlli kəndində anadan olmuş, orta məktəbi də burada bitirmişdir. 2011-ci ildə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qobustan rayon bölməsindən hərbi xidmətə yola düşmüşdür. Hərbi xidmətdə olarkən dəfələrlə komandanlıq tərəfindən fəxri fərmanla, təşəkkürnamə ilə təltif edilən Orxan zabitlik kursunu da müvəffəqiyyətlə başa vuraraq ixtisası üzrə fəaliyyət göstərirdi.

2016 -ci il aprel ayının 2-də Ermənistan Azərbaycana qarşı növbəti silahlı təxribat törədərək təmas xəttində yerləşən mövqelərimizə hücum çəkdi, yaşayış məntəqələrimizi atəşə tutdu. Amma çox böyük qürurla deyə bilərik ki, Azərbaycan ordusu düşmənə sarsıdıcı zərbələr vurdu. Ordumuz nəinki təxribatın qarşısını ala bildi, eyni zamanda daha əlverişli hərbi mövqeləri ələ keçirdi və təmas xəttində Azərbaycanın üstünlüyü daha da möhkəmləndi. Aparılan hərbi əməliyyat nəticəsində böyük hərbi qələbələr qazandıq. Lakin, bu qələbə təbii ki, bizə itkisiz başa gəlmədi. Döyüş zamanı hərbiçilərimiz və mülki şəxslər qəhrəmancasına həlak oldular. Torpaqlarımızın bütövlüyü uğrunda şəhid olanlar içərisində həmyerlimiz Müstəcəbov Orxan Ələsgər oğlu da var idi. Bu gün Şəhidmizin məzarını Qobustan Rayon İcra Hakimiyyəti nümayəndələri, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin nümayəndələri, eləcə də kənd sakinləri və rayon ictimaiyyəti də iştirak edirdilər.

Qobustan Rayon İcra Hakimiyyəti başçısının müavini Təranə Güləliyeva çıxış edərək bildirdi ki, torpaqlarımızın qorunması, vətənimizin müdafiəsi uğrunda canından, qanından keçərək şəhidlik zirvəsinə ucalmaq ən böyük şərəf və qürurdur. Bu zirvəyə ucalanlar isə heç zaman ölmürlər. Allahın insanlara göndərdiyi müqəddəs "Qurani-Kərim"də buyurulur: "Şəhidlərə ölü deməyin, onlar diridirlər və Allahın nemətləri ilə faydalanırlar, ancaq siz bunu bilmirsiniz". Şəhidlik ölümlərin ən şərəflisidir.

Şəhidi olmayan xalq torpaq məhəbbətindən, yurd sevgisindən məhrumdur. Şəhidi olmayan xalqın mənliyi, kimliyi bilinməz, azadlığı qanı ilə, canı ilə qazanmayan xalq hər vaxt kölə kimi gözüqıpıq, həyəcan içində yaşayar.

# *Ay şəhid atalar, şəhid balalar*

***Şəhid Elman Mədətovun əziz xatirəsinə.***



Atalı uşaqlar "ata" deyəndə,
İki oğlu gözün yola dikəndə,
Ananın bağrını söküb yeyəndə,
Ay şəhid atalar, şəhid balalar.
1 Aprel gələndə ararıq səni,
Bahar güllərindən soraрıq səni,
Ətrini torpaqdan alarıq sənin,
Ay şəhid atalar, şəhid balalar.
Elman deyib bacı, qardaş gəzərlər,
Ağlayıb ürəyin, canın üzərlər,
Yaz gələndə məzarını bəzərlər,
Ay şəhid atalar, şəhid balalar.
Torpağa qarışdı cavan canınız
Qəbirstanlıq oldu xanimanınız
Yerdə qalmayacaq sizin qanınız
Ay şəhid atalar, şəhid balalar.
Bacın saçın yoldu, bibin ağladı,
Ananın fəryadı ürək dağladı,
Qardaşın səsinə ellər ağladı,
Ay şəhid atalar, şəhid balalar.
Anası dözmədi dünyadan köçdü,
Balanın yanını özünə seçdi,
Ölüm şərbətini o vaxtsız içdi,
Ay şəhid atalar, şəhid balalar.
İzzətəm qəlbimin silinməz pası,
Geydiz əyninizə şəhid libası,
Şəhidin həmişə təzədir yası,
Ay şəhid atalar, şəhid balalar.

***İzzət Bəxtiyar qızı Şükürova***
***Mərkəzi Kitabxana Sisteminin işçisi***







# “Uşaq və gənclərin azərbaycançılıq ideologiyası ruhunda tərbiyəsi”











Azərbaycan Respublikası Təhsil Naziri cənab Ceyhun Bayramovun 14.08.2018-ci tarixli F-550 nömrəli ” Ümumi təhsil sahəsində 2018-2019-cu dərs ilinin prioritet fəaliyyət istiqamətləri ” barədə əmrinin 6.4 bəndinin icrasını təmin etmək məqsədilə 13 mart 2019-cu il tarixində ” Uşaq və gənclərin azərbaycançılıq ideologiyası ruhunda tərbiyəsi ” mövzusunda A.Qayıblı adına şəhər 3 saylı tam orta məktəbin akt zalında Qobustan Rayon Təhsil işçilərinin konfransı keçirildi Konfransın işində ümumtəhsil məktəblərinin rəhbərləri, UBTR- ləri, hərbi rəhbərlər, psixoloqlar, məktəb kitabxanaçıları, rayon Gənclər və İdman idarəsinin nümayəndələri, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qobustan rayon bölməsinin əməkdaşları, qabaqcıl təhsil işçiləri olmaqla 135nəfər iştirak edirdi.

Konfransı giriş sözü ilə açan Rayon Təhsil Şöbəsinin müdiri F.Gülalıyev geniş məruzə ilə çıxış edərək bildirdi ki, hər bir dövlətin beynəlxalq aləmdə nüfuzu və siyasi imici sosial iqtisadi inkişafı ilə yanaşı, eyni zamanda onun ideoloji əsaslarının mütərəqqi və hümanist xarakteri ilə dəyərləndirilir.Vətəndaşlarının mənəvi zəngilliyi, vətənpərvərliyi və tolerantlığı, əslində, həmin ölkənin dövlətçilik ideologiyasının milli və bəşəri dəyərlər üzərində qurulmasının, bilavasitə insanların mənafeyinə yönəldilməsinin real göstəricisidir. Ölkəmizdə azərbaycançılıq ideologiyasının möhkəmləndirilməsində ümummilli liderimiz Heydər Əliyevin müstəsna xidmətləri olmuşdur. Onun ” Hər bir millətin milli mənsubiyyəti onun qürur mənbəyidir. Mən həmişə fəxr edirəm ki, mən azərbaycanlıyam ” kəlamı azərbaycançılıq ideologiyasının təbliğində müstəsna əhəmiyyətə malikdir. Hələ Sovet dönəmində ulu öndər Azərbaycan xalqının inkişafına, Azərbaycan dilinin saflığının qorunub saxlanmasına xüsusi diqqət yetirirdi. Belə ki, 1978-ci ildə qəbul olunmuş Azərbaycan SSR Konstitusiyasında Azərbaycan dili məhz onun qətiyyəti sayəsində dövlət dili kimi təsbit olunmuşdur. Milli dəyərlərimizin qorunması və gələcək nəsillərə çatdırılması bu gün daha çox aktualdır. Çünki qloballaşan dünyada milli-mənəvi dəyərlərimiz Azərbaycan xalqının formalaşmasında və milli dövlətçiliyimizin möhkəmləndirilməsində böyük əhəmiyyətə malikdir. Milli ideologiya, milli tarix, milli dil, dinimiz, milli mədəniyyət və incəsənət, ədəbiyyat, musiqi, dahi şəxsiyyətlərimiz xalqın yaddaşını ehtiva edən folklorumuz bizim milli-mənəvi dəyərlərimizdir. Ümummilli liderimiz H.Əliyev məruzə və çıxışlarında, habelə gənclərlə görüşlərində gənc nəslin milli ruhda tərbiyə olunmasında mədəniyyətimzin, mənəvi-dəyərlərimizin müsbət təsirini vurğulayaraq demişdir: ” Biz öz milli-mənəvi dəyərlərimizlə fəxr edirik. Bizim xalqımız yüz illərlə, min illərlə adət-ənənələrimizi milli-mənəvi dəyərlərimzi yaradıb və bunlar indi xalqımızın mənəviyyatını təşkil edən amillərdir. Öz dili, mədəniyyəti, mənəvi-dəyərləri ilə tərbiyə olunmuş gənclər heç vaxt vətəninə, xalqına ögey münasibət bəsləməz. Gənclərimiz milli ruhda tərbiyə olunmalıdır, bizim milli-mənəvi dəyərlərimizin əsasında tərbiyələnməlidirlər.Gənclərimiz tariximizi, dilimizi, adət-ənənəmizi yaxşı bilməlidirlər.Çünki milli dəyərlərimizi, milli ənənələrimizi, tariximizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz ”.

Azərbaycan müasirləşən, Avropa və dünya birliyinə sürətlə inteqrasiya edən ölkədir. Təbii ki, müasir dünyada sürətlə davam edən qloballaşma prosesləri bizim də ölkədən yan keçməyib. Buna baxmayaraq qloballaşma adı altında öz milli dəyərlərimizi unutmamalı və bu dəyərlərə sadiq olmalıyıq. Hər ölkə və xalq üçün milli dəyərləri üstün tutulmalı və digər xalqların dəyərləri ilə ziddiyyət təşkil etməməlidir. Milli dəyərlərə söykənən dövlət quruculuğu xalqın milli şüuruna, milli dəyərlərinə istinad edir və bunalrın yetişən gənc nəslə aşılanması günümüzün ən vacib məsələlərindən biridir.

Şikar Şikarov adına Sündü kənd tam orta məktəbin direktoru Z.Məlikov çıxışında bildirdi ki, vətən müqəddəs və əbədidir. Vətənin müqəddəsliyi hər birimizin qəlbinə, ruhuna ana laylası ilə daxil olur. Ana vətənimiz Azərbaycan Cavanşir, Babək, Koroğlu, Cingiz Mustafayev, Şikar Şikarov , Mübariz İbrahimov kimi igidlər yurdudur. Azərbaycanın bu qəhrəman övladları vətənin azadlığı, müstəqilliyi uğrunda mübarizə aparmış, canlarını bu yolda qurban vermişlər. Öz xalqı, milləti üçün canından, qanından keçən, şərəfli həyat yolu ilə başqalarına nümunə olan minlərlə vətən övladımız var. Bu gün hər bir kəs dövlət, vətən qarşısında vətənpərvərlik borcunu dərk etməlidir.

Ərəbşalbaş kənd tam orta məktəbin müəllimi Ə.Qurbanov çıxış edərək bildirdi ki, Azərbaycan dili milli varlığımızı müəyyənləşdirən ən başlıca vasitələrdən biridir. Ulu öndər H.Əliyevin ” İnkişaf etmiş zəngin dil mədəniyyətinə sahib olan xalq əyilməzdir, ölməzdir, böyük gələcəyə malikdir.Ona görə də xalqımıza ulu babalardan miras qalan bu ən qiymətli sərvəti hər bir Azərbaycan övladı göz -bəbəyi kimi qorumalı, daim qayğı ilə əhatə etməlidir ” kəlamı bu gün bizim əsas şüarımıza çevrilməlidir. Çünki hər bir xalqın ən mühüm, ən vacib amillərindən biri olan ana dili heç vaxt yaddan çıxmayan, unudulmayan əvəzsiz bir nemət və milli qürur mənbəyidir. Tarix boyu başı bəlalar çəkmiş Azərbaycan xalqı zaman-zaman əzilsə də, represiyalara məruz qalsa da öz dili ana dilini qoruyub saxlaya bilmişdir.

***Yaddan çıxmaz ana dilim, Doğransam da dilim- dilim***

A.Qayıblı adına şəhər 3 saylı tam orta məktəbin tarix müəllimi M.Səlimli öz çıxışında qeyd etdi ki, gənclərin vətənpərvərlik ruhunda tərbiyəsində Ramil Səfərov kimi Azərbaycan bayrağına böyük önəm verən, onun ucalığı yolunda hər şeydən keçməyə hazır olan zabitlərimizin igidliyi gənclərimizə gözəl örnəkdir. Budapeşt həbsxanasında cəza çəkən eloğlumuza Azərbaycan prezidenti cənab İlham Əliyev sahib çıxaraq ona arxa durdu, həbsdən azad etdirərək doğma vətənimizə gətirməklə ermənilərə ikinci böyük zərbəni vurdu.

Təklə kənd tam orta məktəbin müəllimi Ə.Məmmədov çıxış edərək bildirdi ki, gənc nəslin azərbaycançılıq ideologiyası ruhunda tərbiyə olunmasında Azərbaycan tarixinin öyrənilməsinin böyük önəmi vardır. Belə ki, yetişən nəsil öz tarixini mükəmməl bilməli, öyrənməli və təbliğ etməlidir. Çünki zaman-zaman bizə öz tariximizi unutdurmağa çalışmış, bizi öz soykökümüzdən uzaqlaşdırmağa cəhd etmişlər.

A.Qayıblı adına şəhər 3 saylı tam orta məktəbin direktoru Ə.Abduləzizov çıxış edərək bildirdi ki, gənc nəslin təlim-tərbiyəsində sinifdənxaric tədbirlərin rolu böyükdür. Biz məktəbimizdə bu işlərə böyük önəm veririk.Belə ki, dərs həftəsi Azərbaycan Respublikasının Dövlət Himninin oxunması ilə başlayır, hər gün müxtəlif mövzularda səhər təqdimatları keçirilir. Bundan əlavə, məktəbimizin pedaqoji kollektivi Şamaxı rayon Sabir qəsəbə tam orta məktəbin kollektivi ilə fəal əməkdaşlıq edir, təcrübə mübadiləsi aparırıq.

ATİAHİ Qobustan Rayon komitəsinin sədri Ə.Qayıbov çıxış edərək göstərdi ki, uşaq və gənclərin azərbaycançılıq ideologiyası ruhunda tərbiyəsi erkən yaşlardan başlamalıdır.Bu işin bünövrəsi evdən, ailədən, uşaq bağçasından başlamalıdır.

Sonda konfransın qərar layihəsi əlavə və düzəlişlərlə qəbul edildi.

Qobustan Rayon Təhsil Şöbəsinin müdiri F.Gülalıyev yekun sözü ilə konfransın əhəmiyyətini vurğulayaraq iştirakçılara işlərində uğurlar arzuladı və bu mövzuda tədbirlərin bütün məktəblərdə keçirilməsinin vacibliyini vurğulayaraq müvafiq göstəriş və tapşırıqlar verdi.

***Qobustan Rayon Təhsil Şöbəsinin metodisti İlqar Alcanov***

# Qobustan Rayon İcra Hakimiyyətinin başçısı Adil Məmmədov Təklə kənd sakinləri ilə səyyar görüşü keçirdi



***2019-cu il mart ayının 15-də, Təklə kənd ümumi orta məktəbində Qobustan Rayon İcra Hakimiyyətinin başçısı Adil Məmmədov Təklə kənd sakinləri ilə səyyar görüşü keçirdi.***

Görüşdə Rayon İcra Hakimiyyəti başçısının müavinləri, aparatın şöbə müdirləri, xidmət sahələrinin rəhbərləri iştirak edirdi. Sakinlər çıxış edərək rayonumuzda gedən abadlıq və quruculuq işlərinə görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirdilər və onları narahat edən bəzi nöqsan və çatışmazlıqların aradan qaldırılmasını xahiş etdilər. Rayon İcra Hakimiyyətinin başçısı Adil Məmmədov sakinlər tərəfindən qaldırılan məsələlərin həlli ilə əlaqədar aidiyyəti qurum rəhbərlərinə konkret tapşırıqlar verdi.









# "Yol hərəkəti qaydaları"













***Qobustan şəhər 2 saylı tam orta məktəbində "Yol hərəkəti qaydaları" adlı tədbir keçirildi. Tədbiri giriş sözü ilə məktəbin direktoru V. Mamedova açıq elan edərək tədbirdə iştirak edənləri salamladı və tədbirin mahiyyəti haqqında ətraflı məlumat verdi.***

O, qeyd etdi ki, Azərbaycan Respublikası Prezidentinin 27 dekabr 2018-ci il tarixli 852 nömrəli sərəncamı ilə "Azərbaycan Respublikasında yol hərəkətinin təhlükəsizliyinə dair 2019-2023-cü illər üçün Dövlət Proqramı" təsdiq edilmişdir. Dövlət Proqramınınhəyata keçirilməsi üzrə müəyyən edilmiş tədbirlər planının icrası ilə bağlı Təhsil Nazirliyinin 28 yanvar 2019-cu il tarixli 51 nömrəli əmri ilə tədbirlər planı təsdq rdilmişdir. Həmin tədbirlər planında yerli təhsil idarətmə orqanları ilə təhsil müəssisələri birgə həyata keçirilmələri tapşırılmışdır.



Bu gün bizim məktəbimizdə də belə bir tədbir həyata keçirilir. Sonra V.Mamedova tədbirdə iştirak edən Qobustan rayon Dövlət Yol Polis Bölməsinin əməkdaşlarına söz verdi. Polis baş leytenantı Baloğlanov Rəşad yol hərəkəti qaydaları haqqında ətraflı çıxış etdikdən sonra məktəb şagirdlərinin də suallarını cavablandırdı. Daha sonra məktəb şagirdlərinin ifasında yol hərkəti qaydalarına həsr olunmuş slaydlar, səhnəciklər nümayiş olundu.

Məktəbimizin dil-ədəbiyyat müəllimi B.Səmid müəllimlədə çıxış edərək qeyd etdi ki, belə tədbirlərin mütəmadi keçirilməsi məktəb şagirdlərinin yol hərəkəti qaydaları haqqında biliklərini artırır. O, bu tədbiri təşkil etdiyi üçün məktəbin coğrafiya müəllimi R.Aytaca və bütün əziyyəti olanlara dərin təşəkkürünü bildirdi.

***Qobustan şəhər 2 saylı tam orta məktəbin müəllimi Rəcəbova Aytac***

# Qobustan Rayon İcra Hakimiyyəti başçısı Adil Məmmədovun Təklə Mirzəbaba kənd sakinləri ilə növbəti səyyar görüşü keçirildi







***Qobustan rayon Təklə Mirzəbaba kənd tam orta məktəbində Qobustan Rayon İcra Hakimiyyətinin başçısı Adil Məmmədov Təklə Mirzəbaba kənd sakinləri ilə səyyar görüşü keçirdi.***

Görüşdə Rayon İcra Hakimiyyəti başçısının müavinləri, aparatın şöbə müdirləri, xidmət sahələrinin rəhbərləri iştirak edirdi. Sakinlər çıxış edərək rayonumuzda gedən abadlıq və quruculuq işlərinə görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirdilər və onları narahat edən bəzi nöqsan və çatışmazlıqların aradan qaldırılmasını xahiş etdilər. Rayon İcra Hakimiyyətinin başçısı Adil Məmmədov sakinlər tərəfindən qaldırılan məsələlərin həlli ilə əlaqədar aidiyyəti qurum rəhbərlərinə konkret tapşırıqlar verdi.

# Qobustan rayon Cəmcəmli kəndində RİH başçısı cənab Adil Məmmədov kənd sakinləri ilə görüş keçirdi

***Qobustan rayon Cəmcəmli kəndində RİH başçısı Adil Məmmədov kənd sakinləri ilə görüş keçirdi.***

Görüşdə ilk öncə Cəmcəmli kənd İƏD üzrə nümayəndə Mehman Əhmədov hesabat verərək ötən il ərzində kənddə görülən işlər barədə danışdı. O, kənddə hal-hazırda yaşayan ailələr haqqında məlumat verdikdən sonra qeyd etdi ki ,əhalinin əsas məşğuliyyəti əkinçilik və hayvandarlıqdır. Kənddə 7 ədəd konbayn, 20 ədəd şum traktoru və digər texniki vasitələr fəaliyyət göstərir ki, bunlar da əkinçiliklə məşğul olan kənd sakinlərinin işini asanlaşdırır. Digər sahələr haqqında da ətraflı məlumat verdi.

Kənd sakinlərindən Əzizov Qüdrət, Tarverdiyev Abdulhəşim, Bayramova Ziyafət, Baxşıyev Rəssam cixişlarında ölkə başçısı cənab İlham Əliyevə rayonda aparılan quruculuq və abadlıq işlərinə görə dərin minnətdarlıqlarını bildirdilər və təşəkkür etdilər. Çıxış edən kənd sakinləri qeyd etdilər ki, kəndə gələn yolun təmir olunması, tibb məntəqəsinin tikilməsi, müasir standartlara cavab verən məktəbin tikilərək istifadəyə verilməsi, qaz təminatı , işq təminatı fasiləsiz verilməsi və sair işlərin aparılmasına görə ilk öncə Ölkə Prezidentinə, sonra isə Qobustan RİH-nin başçısı A.Məmmədova öz minnətdarlıqlarını bildirdilər. Sakinlər Qobustan RİH-nin başçısı A.Məmmədovdan su probleminin tezliklə həll olunmasını xahiş etdilər. Sonra RİH başçısı cənab A. Məmmədov çıxış edərək kənd sakinlərinin işgüzarlıqlarını xüsusi qeyd etdi və onlara öz minnətdarlığını bildirdi. Kənddə kənd təsərrüfatına xüsusi yer verildiyini və bütün əkinlərin aqrotexniki qaydalara əməl etdiyini və ziyanvericilərə qarşı aparılan mübarizənin qənaətbəxş hesab edildiyini vurğuladı. Kəndin problemləri ilə yaxından tanış olduğunu və aidiyyatı üzrə işlər görüldüyünü bildirdi. Kənddə kənd təsərrüfatına xüsusi yer verildiyini və bütün əkinlərin aqrotexniki qaydalara əməl olunaraq əkilməsinin və ziyanvericilərə qarşı aparılan mübarizənin vacib olduğunu qeyd etdi. Sonra qeyd etdi ki, rayonumuza göstərilən bu qayğıya görə cənab prezidentimiz İlham Əliyevə öz təşəkkürümüzü bildiririk.

Sonda RİH başçısı cənab A. Məmmədov sakinlərin təkliflərini nəzərə alaraq o sahələrə məsul olan şəxslərə öz tapşırıqlarını verdi. Kənd sakinlərinin əsas əziyyət çəkdikləri su probleminin də yaxın vaxtlarda öz həllini tapacağını bildirdi Kənd sakinlərinə gördükləri işlərdə uğurlar arzuladı. Vətəndaşlara bildirlidi ki, göstərilən məsələlər də tez bir zamanda öz həllini tapacaq.



















# Qobustan rayonu Xilmilli kəndində Pasxa bayramı ilə bağlı tədbir keçirilib







***28 aprel 2019-cu ildə Qobustan rayonu İcra Hakimiyyətinin, Qobustan rayon İcra Hakimiyyəti başçısının Xilmilli kənd İnzibati Ərazi Dairəsi üzrə nümayəndəliyinin və Xilmilli kənd "Molokan ruhani-xristian" dini icmasının birgə təşkilatçılığı ilə Xilmilli kəndində Pasxa bayramı ilə bağlı tədbir keçirilib.***

Tədbirdə Qobustan rayon İcra hakimiyyəti başçısının İctimai-siyasi və humanitar məsələlər şöbəsi müdirinin müavini-dini qurumlarla işin təşkilatçısı Aftandil Şikarov, Dini Qurumlarla İş Üzrə Dövlət komitəsinin Şamaxı bölgəsi üzrə əməkdaşı Cavid Əhmədov, Xilmilli kənd ƏİD üzrə nümayəndəsi Adil Bayramov, Xilmilli kənd bələdiyyəsinin sədri Namik Mirzəyev, Çalov kənd məscidinin imamı Həqiqət Rəcəbov, Cəyirli kənd məscidinin imamı Məzahir Axundov,Xilmilli kənd "Molokan ruhani-xristian" dini icmasının və Xilmilli kənd məscidi dini icmasının üzvləri iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan QİH başçısının İctimai-siyasi və humanitar məsələlər şöbəsi müdirinin müavini-dini qurumlarla işin təşkilatçısı Aftandil Şikarov "Molokan ruhani-xristian" dini icmasının üzvlərini Qobustan rayonu İcra hakimiyyəti başçısı və rayon ictimaiyyəti adından təbrik etmişdir. A.Şikarov çıxışında ölkəmizdəki multikultural, tolerant mühitdən və bu sahəyə ölkə Prezidentinin, həmçinin rayon rəhbərliyinin diqqət və qayğısından danışmışdır.

Xilmilli kənd ƏİD üzrə nümayəndəsi Adil Bayramov, Dini Qurumlarla İş Üzrə Dövlət komitəsinin Şamaxı bölgəsi üzrə əməkdaşı Cavid Əhmədov, Çalov kənd məscidinin imamı Həqiqət Rəcəbov, Cəyirli kənd məscidinin imamı Məzahir Axundov və Xilmilli kənd məscidinin imamı Mehralı Muradov "Molokan ruhani-xristian" dini icmasının üzvlərini Bayram münasibəti ilə təbrik etmiş, rayonumuzda dinlərarası, millətlərarası münasibətlərin yüksək qarşılıqlı dostluq şəraitində olduğunu vurğulamışdır.

Xilmilli "Molokan ruhani-xristian" dini icmasının sədri Yekaterina Tsapleva və din xadimi Fyodor Raxmanin göstərilən qayğıya görə ölkə Prezidentinə və rayon rəhbərliyinə öz dərin minnətdarlığını bildirdilər.

## Qobustan rayon prokurorluğu əməkdaşları tərəfindən 2019-cu ilin aprel-iyun aylarında vətəndaşların yaşayış yerləri üzrə qəbuluna dair

## QRAFİK

| Sıra №-si | Vətəndaşların qəbulu keçirilən ərazi | Qəbulun keçirilmə vaxtı | Vətəndaşları qəbul edən məsul şəxs |
|---|---|---|---|
| 1. | Qobustan rayonu İHB-nin Xilmilli kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyi | 26.04.2019 15:00-18:00 | Rayon prokuroru Ramin Hüseynov |
| 2. | Qobustan rayonu İHB-nin Bədəlli kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyi | 27.05.2019 15:00-18:00 | Rayon prokuroru Ramin Hüseynov |
| 3. | Qobustan rayonu İHB-nin Sündü kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyi | 26.06.2018 15:00-18:00 | Rayon prokuroru Ramin Hüseynov |

Qeyd: Kəndlərdə qəbulların keçirilməsi ilə əlaqədar əvvəlcədən rayon İHB-nin kəndlər üzrə inzibati ərazi dairəsi üzrə nümayəndəliklərinə və bələdiyyələrə məlumat verilmədilir

***Qobustan rayon prokuroru kiçik ədliyyə müşaviri Ramin Hüseynov***

## ELANLAR

Qobustan rayon Xilmilli kəndi ünvanında yerləşən Qədirov Valeh Hüseynbaba oğluna məxsus ƏMDK-nın yanında DƏDRX-nin 14 saylı Şamaxı Ərazi İdarəsi tərəfindən verilmiş 307013000288-10301 reystr nömrəli texniki pasport və reysterdən çıxarış itdiyi üçün etibarsız saylır.

Xəlilov Ağasaleh Mustafa oğluna və ailə üzvlərinə verilmiş, Qobustan rayonu Xilmilli kəndində yerləşən JN-0629 nömrəli kod 30712018 torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyi üçün etibarsız sayılır.

Məmmədov Telman İsgəndər oğluna və ailə üzvlərinə verilmiş, Qobustan rayonu Xilmilli kəndində yerləşən JN-323 kod 30712018 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyi üçün etibarsız sayılır.

Atababayev Şirin Niyyət oğluna və ailə üzvlərinə verilmiş, Qobustan rayonunda yerləşən JN-0316 kod 30701006 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyi üçün etibarsız sayılır.

# Hüquqi şəxslərin dövlət qeydiyyatı cəmi bir prosedurla 20 dəqiqə ərzində həyata keçirilir

***Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzində (İİTKM) Vergilər Nazirliyinin nümayəndələrinin iştirakı ilə hüquqi şəxslərin dövlət qeydiyyatı prosedurunun mahiyyəti və üstünlüklərinə həsr edilmiş mətbuat konfransı keçirilib.***

İİTKM-in analitiki Nərmin Kazımlı KPMG, PwC, EY, Ekvita, Dentons kimi iri konsaltinq şirkətlərinin də iştirak etdiyi konfransda bildirib ki, Biznes mühiti və beynəlxalq reytinqlər üzrə komissiyanın "Biznesə başlama, vergi və hesabatlılıq" adlı işçi qrup ilə yanaşı, digər işçi qruplarının nümayəndələrinin də iştirakı ilə silsilə mətbuat konfranslarının keçirilməsi nəzərdə tutulub. Mətbuat konfranslarında kompleks biznes islahatlarının icrası istiqamətində görülən işlər və son statistik göstəricilər barədə məlumat veriləcək.

Vergilər Nazirliyinin Dövlət qeydiyyatı və uçota nəzarət departamentinin baş direktoru Ələkbər Məmmədov yeni onlayn qeydiyyat sistemi barədə KİV nümayəndələrinə məlumat verib. Bildirilib ki, bu islahatlar nəticəsində hüquqi şəxslərin cəmi bir prosedurla onlayn dövlət qeydiyyatına alınması üçün əlverişli şərait yaradılıb. Yeni onlayn qeydiyyat sisteminin həyata keçirilməsində əsas məqsəd biznesə başlama prosedurlarının sadələşdirilməsi, vaxta qənaət, əlverişli biznes mühiti, şəffaflığın təmin olunması, məmur-sahibkar ünsiyyətinin minimuma endirilməsi və vətəndaş məmnunluğunun artırılmasıdır. Xüsusilə qeyd olunub ki, yeni qeydiyyat sisteminə əsasən, qeydiyyat sənədləri yalnız vergi ödəyicisinin elektron kabinetinə onlayn qaydada göndərilir və bu sənədlərin kağız daşıyıcılarda götürülməsinə zərurət olmur. Elektron kabinetə göndərilmiş qeydiyyat sənədləri xüsusi barkodla şifrələnməklə onların rəsmi olaraq bütün dövlət qurumları, banklar, notariuslar və digər təşkilatlarda qəbul edilməsi üçün qanunvericilik bazası və inzibatçılıq da təkmilləşdirilib. Bu xidmətdən istifadə edənlərə yardım məqsədilə İnternet Vergi İdarəsində "Yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyətin e-qeydiyyatı" (elektron imza olmadan) təlimatı yerləşdirilib.

***Yeni onlayn qeydiyyat sisteminin həyata keçirilməsində əsas məqsəd biznesə başlama prosedurlarının sadələşdirilməsi, vaxta qənaət, əlverişli biznes mühiti, şəffaflığın təmin olunması, məmur-sahibkar ünsiyyətinin minimuma endirilməsi və vətəndaş məmnunluğunun artırılmasıdır***

Bildirilib ki, yeni xidmətdən yararlanmaq istəyən istifadəçilər elektron imza olmadan İnternet Vergi İdarəsinə daxil olaraq elektron qeydiyyat sistemində FIN kodla indentifikasiyadan keçirlər. Qeydiyyat ərizəsinin məlumatları sistemə onlayn qaydada daxil edilir və bir prosedurla sənədlər təsdiqlənməklə VÖEN verilməsi prosesi yekunlaşır. Həmin prosedur çərçivəsində avtomatik olaraq əmək müqaviləsi bildirişləri məlumatlarının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin informasiya sisteminə göndərilməsi, vergi ödəyicisinin ƏDV məqsədləri üçün qeydiyyata alınması, ona bankda hesab açmaq məqsədilə şəhadətnamə-dublikatın verilməsi təmin edilir. Statistik rəqəmləri diqqətə çatdıran Ə.Məmmədovun sözlərinə görə, ötən ilin müvafiq dövrü ilə müqayisədə 2019-cu ilin 1-ci rübündə qeydiyyata alınmış hüquqi şəxslərin sayı 8,1 faiz, fiziki şəxslərin sayı 28,5 faiz, yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyətlərin elektron qeydiyyatı 11,3 faiz artıb. Cari ilin mart ayında yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyətlərin elektron qeydiyyatının xüsusi çəkisi 87,8 faiz təşkil edib.

***Qeydiyyatın həyata keçirilməsi üçün e-ərizənin elektron imza ilə təsdiq edilməsi zərurəti aradan qaldırılıb, eləcə də qeydiyyatla bağlı əvvəllər mövcud olan bütün prosedurlar ləğv olunub***

Xatırladaq ki, cari ilin əvvəlindən başlayaraq dövlət qeydiyyatının aparılmasının (ƏDV qeydiyyatı və bank hesabının açılması da daxil olmaqla) bir prosedurla tamamlanması mümkündür. Qeydiyyatın həyata keçirilməsi üçün e-ərizənin elektron imza ilə təsdiq edilməsi zərurəti aradan qaldırılıb, eləcə də qeydiyyatla bağlı əvvəllər mövcud olan bütün prosedurlar ləğv olunub. Nəticədə hüquqi şəxsin qeydiyyatı prosedurlarının sayı 3-dən 1-ə, müddəti isə 20 dəqiqəyədək azaldılıb, biznesə başlamaq üçün maliyyə vəsaiti və sənəd sayı sıfıra endirilib.

Bütün bunlar vergi qanunvericiliyində sahibkarlığın dəstəklənməsi ilə bağlı aparılan dəyişikliklərin davamıdır və ölkədə biznes mühitinin əlverişliliyinin daha da yaxşılaşdırılmasına xidmət edir. Aparılan islahatlar ölkəmizin "Doing Business" hesabatında mövqelərinə də müsbət təsir edəcəkdir. Hazırda "Doing Business 2019" hesabatında Azərbaycan "Biznesə başlama" indikatoru üzrə 190 ölkə arasında 9-cu yerdədir.

Konfransda KİV nümayəndələrinin sualları cavablandırılıb.

*Təsisçi:* Qobustan Rayon İcra Hakimiyyəti
www.qobustan-ih.gov.az

*Baş redaktor:* Ruslan Şahbazov
Tel.: (050) 524 28 10
(070) 224 28 10

*Ünvan:* Qobustan şəhəri, Heydər Əliyev prospekti. Qobustan Rayon İcra Hakimiyyətinin binası.
Qəzet ayda iki dəfə çıxır

Qəzet "Son dəqiqə" mətbəəsində çap olunmuşdur
Tiraj: 2000
E_mail:qobustanqazeti@mail.ru